Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# Bütün dini icmaların dövlətçilik ətrafında sıx və şərtsiz birləşməsi - Azərbaycançılıq ideyasına bağlılığın sübutsuz təzahürü...

## 9-cu istiqamət: Azərbaycançılıq ideyasının təbliği

**Milli-etnik tərkibindən asılı olmayaraq, Azərbaycan Respublikasında yaşayan bütün xalqların azərbaycançılıq ideyası ətrafında sıx birləşdiyini son günlərin hadisələri bir daha ortaya qoydu. Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi 27 sentyabr təxribatları, terroru ölkəmizin bütün vətəndaşları tərəfindən ciddi etirazla, qınaqla qarşılandı.**

Çoxmillətli, çoxkonfessiyalı, multikultural, tolerant ölkə kimi dünyada tanınan Azərbaycanda bu gün bütün xalqlar yumruq kimi birləşib və erməni terroruna, separatizminə qarşı mübarizə cəbhəsinin önündə dayanıblar. Bu dövlət türkü, talışı, rusu, yəhudisi, gürcüsü, tatı, ləzgisi, lakı, saxuru, udisi, buduqu, ceki və sairləri ilə güclü olduğunu, erməni terroruna qarşı tam gücü ilə hərəkət etdiyini bir daha bütün dünyaya sərgilədi. Bununla da Azərbaycanda dini-milli zəmində münaqişə yaratmaq istəyən müxtəlif təxribatçı qüvvələrin mənfur fəaliyyətləri iflasa uğradı.

### Milli-etnik icmaların Azərbaycan Ordusu ilə həmrəyliyinin sarsılmaz olduğu bir daha bəyan edildi

Məlum olduğu kimi, ölkəmizdə mövcud olan bütün dini konfessiyaların, milli-etnik qrupların təmsilçiləri erməni təxribatının zərərsizləşdirilməsi, məhv edilməsi, torpaqlarımızın yağı düşməndən azad edilməsi istiqamətində ordumuzun həyata keçirdiyi və bu gün də davam edən əks-hücum, antiterror əməliyyatlarını ciddi şəkildə dəstəkləyirlər.

Bir neçə gün əvvəl Azərbaycanda yaşayan dini konfessiyaların rəhbərləri təmsil etdikləri dini icmalar adından Ali Baş Komandan, Prezident İlham Əliyevə müraciət edərək Prezidentə və ordumuza böyük dəstək nümayiş etdirdiklərini yenidən bəyan etdilər. Bu, ölkəmizdə yaşayan bütün xalqların birliyinin, vahid məqsəd ətrafında birləşdiyinin, azərbaycançılıq ideyasına xidmət etdiyinin açıq və birmənalı ifadəsidir.

Azərbaycandakı dini icmaların rəhbərləri ölkə başçısına müraciətlərində Azərbaycan Ordusunun işğal olunmuş ərazilərin azad edilməsi yönündə qazandığı zəfərləri böyük sevinc və ruh yüksəkliyi ilə qarşıladıqlarını bəyan etdilər.

Onlar vurğulayıblar ki, Prezident İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın qlobal təşəbbüs və əməli səyləri sayəsində Azərbaycan milli-mənəvi dəyərlərlə yanaşı, multikultural dəyərlərin dünya miqyasında hamisi kimi nüfuz qazanıb. "...Azərbaycan dini-mənəvi irsə qayğı ilə yanaşan, milli və ümumbəşəri dəyərləri himayə edən, dini məbədləri dövlət səviyyəsində təmir, inşa və bərpa edən dövlət kimi tanınır. Biz - dini konfessiya rəhbərləri bu qayğının bilavasitə şahidləriyik. Paytaxt Bakının mərkəzində erməni kilsəsini bərpa edib qoruyan Azərbaycanın əməlləri qarşılığında ölkəmizin Ermənistan tərəfindən işğal olunmuş ərazilərində dini-tarixi abidələrə, müqəddəs məkanlara qarşı həyata keçirilən vandalizm aktları bizi din xadimləri olaraq hədsiz narahat edir. Qədim Qarabağ torpağında islam dininə məxsus ibadətgahlar, qəbiristanlıqlar məqsədyönlü şəkildə dağıdılır, təhqir olunur. Ümumislam əhəmiyyətli abidələrlə yanaşı, xristian və yəhudi məbədlərinə və müqəddəs yerlərinə qarşı da təxribat saxtalaşdırma, mənşəyini dəyişdirmə həyata keçirilir. Qədim alban, pravoslav kilsələrinin qriqoryanlaşdırılması istiqamətində iş aparılır. Ümumbəşəri irsə belə münasibət qəbulolunmazdır.

...Ədalətin bərpası yönündə Sizin atdığınız bütün zəruri addımları dəstəkləyən biz - dini konfessiya rəhbərləri bəyan edirik ki, 20 Yanvar hadisələrində, Qarabağ müharibəsində ölkədəki xristianlar, yəhudilər, digər millət və din mənsubları Azərbaycan xalqı ilə bir cərgədə, mübarizə meydanında çiyin-çiyinə olmuşlar. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş Milli Qəhrəman Mübarizlərlə bərabər Aqarunovlar, Yakovlevlər, Polovinkolar, Senyuşkinlər kimi yəhudi, rus, ukraynalı və digər millətləri təmsil edən qəhrəman Vətən oğulları ilə fəxr edirik. Bu gün də Vətən torpaqlarının müdafiəsində milli, dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar Ali Baş Komandanın yanındadırlar. Vətənin müdafiəsi yolunda şəhid olan bütün övladlarımıza Uca Allahdan rəhmət, yaralılara şəfa diləyirik. ...Dünya ictimaiyyətinin əksəriyyəti Azərbaycanın haqq yolunda olduğunun fərqindədir və dövlət olaraq öz torpaqlarını azad etmək iradəsini müdafiə edir. ...Azərbaycan Prezidentinin qətiyyət və əzminə dəstək bildirilir, erməni işğalçılarının riyakar və haqsız davranışları sərt şəkildə qınanır. ...Azərbaycan haqlı tərəfdir və deməli, Haqq bizimlədir. Biz - ölkəmizdəki dini konfessiyaların rəhbərləri Bir Olan Yaradanımızdan Azərbaycanın haqq işinin qələbəsinə rəvac verməsini diləyir, dünyanın müxtəlif ölkələrində yaşayan, milli, dini mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq, Azərbaycanda doğulub boya-başa çatmış bütün həmvətənlərimizi həmrəyliyə, Azərbaycan Prezidentinin, Ali Baş Komandanın ətrafında daha sıx birləşməyə çağırırıq".

### Azərbaycanın yəhudi icması da Azərbaycanın haqq mübarizəsini dəstəkləyir

Azərbaycanın yəhudi icması da Prezidentə ayrıca müraciət qəbul edib. Mürcaiətdə vurğulanır ki, 2020-ci il sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı yenidən təxribat törədib, bu təxribat tərəflər arasında növbəti münaqişəyə çevrilib. Azərbaycanın yəhudi icması Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüz aktlarını qətiyyətlə pisləyir, dünya birliyini və beynəlxalq təşkilatları qətiyyət nümayiş etdirməyə, Ermənistandan öz qoşunlarını işğal altında olan ərazilərdən çıxarmağı və BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin işğaldan azad olunması haqqında qətnamələrinin yerinə yetirilməsini tələb etməyə çağırır: "Bu cür təcavüzlər beynəlxalq hüququ pozur və iki dövlət arasında silahlı münaqişəni daha da kəskinləşdirir.

Cəzasızlıq nəticəsində Ermənistan qısa müddətdə artıq ikinci dəfə Azərbaycana hücum edir, dinc əhalini hədəf seçir, şəhərləri və kəndləri dağıdır. Sonuncu münaqişənin qurbanları arasında dinc sakinlər, o



cümlədən iki uşaq da var.

Bu gün Azərbaycanın hər bir vətəndaşı, dini etiqadından və milliyyətindən asılı olmayaraq, Azərbaycan xalqının və Azərbaycanın Ali Baş Komandanı, Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməlidir. Beynəlxalq birlik Azərbaycanın bütün xalqlarının bu sıx birliyini və Azərbaycanın haqq işi barədə bizim cəmiyyətdə yaranmış yekdil fikri görməlidir.

Bu müharibələrin gedişində müxtəlif xalqların və etnik qrupların çoxsaylı nümayəndəsi zərər çəkib. Onların arasında ürəkdən sevdikləri Vətən uğrunda canlarından keçmiş yəhudilər, o cümlədən, Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov da var.

Biz, Azərbaycanın çoxminlik yəhudi icması qətiyyətlə Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsinə, habelə Ermənistanın Azərbaycana qarşı təxribata və yeni müharibəyə başlamağa görə cavab verməsinə çağırırıq. Bizim icma bütün beynəlxalq təşkilatlara, ATƏT-in Minsk Qrupuna müraciətlə tələb edir ki, aparıcı beynəlxalq təşkilatlar Ermənistanı beynəlxalq hüquqa riayət etməyə - erməni silahlı qüvvələrini Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağa çağırsınlar.

Ermənistan çoxdan başa düşməlidir ki, işğal altında olan Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon Azərbaycanın tarixi torpaqlarıdır və heç vaxt Ermənistana məxsus olmayacaq. Azərbaycanın bütün torpaqları işğaldan azad edilməli, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Biz bütün dünya birliyinə müraciətlə Ermənistanın məsuliyyətə cəlb olunmasını xahiş edirik.

Biz həm də dünya yəhudi ictimaiyyətini Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq hüququ dəstəkləməyə çağırırıq.

Azərbaycanın çoxminlik yəhudi icması Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması siyasətini bütünlüklə və tamamilə dəstəkləyir.

Biz - Azərbaycan yəhudiləri həmişə Azərbaycan xalqının yanında olmuşuq və olacağıq, biz azərbaycanlı qardaşlarımızla birlikdə var gücümüzlə, çiyin-çiyinə Vətənimizi müdafiə etmişik, bundan sonra da müdafiə edəcəyik".

### "Son erməni təxribatları da göstərdi ki, Azərbaycan vətəndaşlarının birliyi sarsılmazdır"

Tanınmış ədəbiyyatşünas, filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmli bizimlə söhbətində bildirdi ki, Azərbaycanda tarixi köklərə malik olan multikulturalizm və tolerantlıq mühiti var və burada yaşayan hər bir xalqın, dinin təmsilçisi də dövlətə, dövlətçiliyə bağlıdır. Xarici ölkələrdəki bəzi təxribatçı qrupların, xüsusən də Ermənistan xüsusi xidmət orqanlarının həyata keçirdiyi təxribatların heç biri ayaq tutub yerimir, çünki həqiqətən də ölkəmizdə yaşayan xalqların dövlətlə, ordu ilə birliyi sarsılmazdır. "Bu gün Azərbaycan Ordusunun düşmən hücumlarına qarşı apardığı əks-hücum əməliyyatları, mənfur ermənilər üzərində qazandığı ardıcıl qələbələr, Ali Baş Komandanımızın bütün addımları ölkə ictimaiyyəti tərəfindən ciddi şəkildə dəstəklənir. Bu baxımdan Azərbaycanda yaşayan mill-etnik icmalar, həmişə olduğu kimi, bu dəfə də dövlətimizin ədalətli mövqeyini müdafiə edərək öz mövqelərini ortaya qoydular. Ölkəmizdə yaşayan dini konfessiyaların rəhbərlərinin Prezident İlham Əliyevə müraciəti onu göstərir ki, bütün xalqlar, bütün dinlərin təmsilçiləri, dini-etnik icmalar azərbaycançılıq ideyası ətrafında sıx birləşiblər. Son erməni təxribatları da göstərdi ki, Azərbaycan vətəndaşlarının birliyi sarsılmazdır. Azərbaycan burada yaşayan bütün xalqların vətənidir və hər bir xalqın nümayəndəsi erməni təcavüzünə qarşı mübarizədə ön cəbhədə dayanıb. Ermənistanı və digər qara qüvvələri də ciddi narahat edən amillərdən biri budur ki, bütün xalqlar erməni separatizminə, terroruna, işğalçılığına qarşı mübarizə cəbhəsində birləşib, həmrəydirlər. Sevindirici haldır ki, ölkəmizdəki dini, milli icmaların təmsilçiləri yalnız əllərində silah erməni təcavüzünə qarşı döyüşmür, həm də informasiya müharibəsində ön cəbhədə dayanıblar, ermənilərə və onların havadarlarına layiqli cavab verirlər".

### "Azərbaycançılıq ideyası ətrafında həmrəy olan vahid Azərbaycan xalqı var"

Ordumuzun keçirdiyi əks-hücum əməliyyatlarının ölkəmizdə böyük sevinc, şadlıq yaratdığını deyən Q.Məhərrəmlinin sözlərinə görə, Azərbaycandakı dini icmalar hər zaman Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun yanında olduğunu sübut ediblər. "Bu gün azərbaycançılıq ideyası ətrafında həmrəy olan vahid Azərbaycan xalqı var və hər bir vətəndaşımız Vətən Müharibəsinə öz töhfələrini verir. Bu günlərdə sosial şəbəkələrdə ölkəmizdə yaşayan ayrı-ayrı xalqların təmsilçilərinin çox maraqlı şüarları yayımlanıb. Onların hamısı şanlı Azərbaycan Ordusunun düşmən üzərində birmənalı olaraq tam qələbə çalacağına əminliklərini ifadə ediblər, həmçinin də Vətənin müdafiəsində yaxından iştirak etdiklərini bəyan ediblər. Ordumuza hərtərəfli dəstək göstərən hər bir Azərbaycan vətəndaşı bununla da Vətən Müharibəsində azərbaycançılıq bayrağı altında düşmənə qarşı vuruşur" - deyə Q.Məhərrəmli qeyd etdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**